İlə yekun vurulur

# Köhnə ilin yeni ünvanları









## BAKI

Oktyabrın 4-də "Xəyal Adası" layihəsi çərçivəsində SABİS Sun Beynəlxalq məktəb kompleksinin və qolf klubunun açılışı olub. Tədbirdə Prezident İlham Əliyev iştirak edib.

Məktəb kompleksində uşaq bağçası, SABİS Sun Beynəlxalq məktəbi və inzibati bina inşa olunub. Kompleks ən müasir tələblərə cavab verməklə təlim-tədris üçün bütün müasir avadanlıqlarla təchiz edilib. Uşaq bağçasının bütün məşğələ otaqları müasir standartlar səviyyəsində qurulub. Burada uşaqların təlim-tərbiyəsi ilə beynəlxalq təcrübədən istifadə etməklə məşğul olmaq üçün hər bir şərait var. Uşaq bağçasında üzgüçülük hovuzu və zəruri avadanlıqlarla təchiz edilən idman zalı da var. Belə idman qurğularının yaradılması, uşaq bağçasında balacaların fiziki cəhətdən sağlam yetişməsi də diqqət mərkəzində saxlanılır. Bağçada yaradılan şərait uşaqların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafına, onların istedad və qabiliyyətlərinin üzə çıxarılmasına, sağlamlıqlarının qorunmasına, ünsiyyət qurmaq vərdişlərinə yiyələnməsinə imkan verir.

* * *

Oktyabrın 21-də Sabunçu Məhkəmə Kompleksinin yeni binasının açılış mərasimi olub. Tədbirdə Prezident İlham Əliyev iştirak edib.

Kompleksin ümumi sahəsi 9 min kvadratmetr olan yeddimərtəbəli binasının inşasına 2012-ci ilin oktyabrında başlanılmışdı. Kompleksdə 150 nəfər, o cümlədən 21 hakim, 100 məhkəmə aparatı əməkdaşı və 30 ədliyyə işçisi çalışır. Müasir informasiya-kommunikasiya texnologiyalarının quraşdırıldığı bina inzibati və ictimai zonalara bölünüb. Hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulub. Bununla da hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşıb və onlar yalnız məhkəmə iclas zalında görüşürlər.

Kompleksdə Sabunçu Rayon Məhkəməsi, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi və Ədliyyə Nazirliyinin rayon icra şöbələri yerləşir. Burada 14 məhkəmə iclas zalı, cinayət işlərinin baxıldığı 4 və mülki işlərin baxıldığı 10 zal var. Zallarda vəkillər, dövlət ittihamçıları, şahidlər və icra məmurları üçün otaqlar ayrılıb.

* * *

Dövlət başçısı həmin gün Bakıda yeni salınan yolların, parkların, yenidən qurulan küçə və prospektlərin açılışında da iştirak edib.

Paytaxtın Həsən Seyidbəyli, Nəriman Nərimanov, Mikayıl Müşfiq, İsmayıl bəy Qutqaşınlı, Mehdi Hüseyn, Kazım Kazımzadə, Məmməd Rahim küçələrində ən yüksək səviyyədə əsaslı təmir və yenidənqurma işləri aparılıb, yeni küçə - Qurban Xəlilov küçəsi və ərazidə yeni park salınıb. Əsaslı təmir və yenidənqurma işləri zamanı 100 min kvadratmetrdən artıq asfalt örtük döşənib, qranit səki daşı düzülüb, müasir işıq dirəkləri quraşdırılıb. Yeni salınan Qurban Xəlilov küçəsində uzunluğu 610, eni 17 metr olmaqla ümumi sahəsi 10 min 370 kvadratmetr əraziyə asfalt-beton örtük döşənib.

## UCAR

Oktyabrın 6-da Ucarda "Fermer" yol-istirahət mərkəzinin açılışı olub. Kompleks 3 hektar ərazidə salınıb. İki hissədən ibarət olan komplerksin birinci hissəsinə Bakı-Gəncə magistral yolunun kənarında yerləşən yarmarka tipli satış məntəqəsi daxildir. Ümumi sahəsi 1200 kvadratmetr olan yarmarka Ucar və ətraf rayonlardan olan vətəndaşların yetişdirdikləri kənd təsərrüfatı məhsullarını rahat və heç bir müdaxilə olmadan istehlakçılara əlverişli qiymətlərlə çatdırır. Bundan başqa, kompleksin ərazisində süni göl yaradılıb, istirahət binaları tikilib. Tədbirdə Prezident İlham Əliyev iştirak edib.

* * *

Dövlət başçısı səfər zamanı rayonun "Ucar Aqro" MMC-nin quş kəsimi və broyler fabriklərinin fəaliyyəti ilə də tanış olub.

Fabrikin inşasının 1-ci mərhələsinin dəyəri 28,4 milyon manatdır. Bu layihələrə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit verilib. Rayonun Qazıqumlaq kəndi ərazisində hər biri 35 min baş quş tutumuna malik 25 ferma inşa edilib. Bununla yanaşı, Alpoud kəndi ərazisində saatda 6 min baş quş kəsimi gücünə malik müasir quş əti emalı fabriki tikilib. Fabrikdə əsas istehsal prosesi kəsim, şoklama, soyutma, bölünmə və qablaşdırma sahələrindən ibarətdir. Fabrikdə elektron idarəetmə paneli olan konveyer xətti, avtomatik qablaşdırma sistemləri, yuyucu və dezinfeksiyaedici qurğular və s. yardımçı avadanlıqlar quraşdırılıb, tutumu 200 ton olan soyuducu və şoklama kameraları inşa edilib.



* * *

Dövlət başçısı həmin gün Ucar Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında da iştirak edib.

Yeni xəstəxana üçün 4,4 hektar torpaq sahəsi ayrılıb. Bu ərazinin 1,2 hektarında 4 korpusdan ibarət ikimərtəbəli kompleks tikilib. Xəstəxana 118 çarpayılıqdır. Burada 340 tibb işçisi çalışır, onlardan 80-i həkimdir. Tibb ocağında cərrahiyyə, terapiya, pediatriya, ginekologiya, revmatologiya, diaqnostika, fizioterapiya, qəbul şöbələri, konsultativ poliklinika, perinetal mərkəz, laboratoriya, təcili tibbi yardım stansiyası fəaliyyət göstərir. Xəstəxana tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin olunub.




* * *

Prezident səfər çərçivəsində Ucar Gənclər Mərkəzinin açılış mərasimində də iştirak edib. Üçmərtəbəli binanın ərazisi 2 min kvadratmetrdir və Ucar Gənclər Mərkəzi ölkədə bu tipli mərkəzlərdən ən böyüyüdür. Burada qurulan 7 D formatlı kinozal orijinallığı ilə diqqəti cəlb edir. Mərkəzin elektron kitabxanası və konfrans zalı da ən müasir avadanlıqlarla təchiz olunub.

* * *

Dövlət başçısı Yeni Azərbaycan Partiyası Ucar rayon təşkilatının yeni inzibati binasının açılış mərasimində də iştirak edib.

Binanın 110 nəfərlik akt zalı partiyanın fəaliyyəti ilə bağlı müxtəlif tədbirlər keçirməyə imkan verir. İnzibati otaqlarda da səmərəli fəaliyyət üçün hərtərəfli şərait yaradılıb.



* * *

Ucar Tarix-Diyarşünaslıq Muzeyi yeni binaya köçüb. Bina ümumi sahəsi 650 kvadratmetr olan bütün lazımi kommunikasiya xətləri və müvafiq avadanlıqlarla təchiz olunub. Muzeydə həm ölkəmizin, həm də Ucarın tarixini əks etdirən və turistlər üçün böyük maraq doğuran çoxlu sayda eksponat var.

* * *

Ucar şəhərinin su təchizatı sistemi yenidənqurmadan sonra istifadəyə verilib.

Ucar şəhərini və ətraf kəndləri içməli su ilə təmin etmək üçün Ağsu rayonu ərazisində Girdmançayın yatağında yerləşən Külüllü su mənbəyi seçilib. Burada sugötürücü qurğu, mənbənin yaxınlığında Ucar şəhərini təmin etmək üçün iki su anbarı tikilib. Anbardan Ucar şəhərinə 57 kilometr özüaxımlı magistral su kəməri çəkilib.

Hər iki obyektin açılışında Prezident İlham Əliyev iştirak edib.

## GÖYÇAY

Prezident İlham Əliyev oktyabrın 6-da Göyçay-Ucar avtomobil yolunun açılış mərasimində iştirak edib.

Yeni 3-cü texniki dərəcəli yolun uzunluğu 20 kilometrə yaxındır. Eni 12 metr olan yolda iki hərəkət zolağı var. Yol üzərində müxtəlif qovşaqlar, həmçinin bir dəmiryol körpüsü yerləşir. Bu yol Göyçay-Ucar istiqamətində avtomobillərin rahat hərəkətini təmin etməklə yanaşı, bölgədə gedən iqtisadi inkişaf proseslərinə də öz töhfəsini verir.



* * *

Dövlət başçısı həmin gün Göyçayda Gənclər Mərkəzinin istifadəyə verilməsi mərasimində də iştirak edib.

Mərkəzdə gənclər üçün hərtərəfli şərait yaradılıb. Burada boulinq zalı, qolf, intellektual oyunlar otaqları, kafe, rəqs studiyası, xarici dil kursları, rəsm, xalçaçılıq, poliqrafiya, heykəltəraşlıq dərnəkləri və fotostudiya fəaliyyət göstərir.



* * *

Prezident səfər çərçivəsində Göyçay Bayraq Meydanı Kompleksində yaradılan şəraitlə də tanış olub. Bayraq meydanının və muzeyin qarşısında hündürlüyü 66 metr olan bayraq dirəyi ucaldılıb. Burada dalğalanan bayrağın eni 12, uzunluğu 24 metrdir. Meydan dövlət rəmzlərinin təbliği və gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə edilməsi işində xüsusi rol oynayır.

* * *

Dövlət başçısı səfər zamanı rayon mərkəzinə təmiz içməli suyun verilməsi mərasimində də iştirak edib. Göyçay şəhərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə 2 su artezian quyusu qazılıb. Gələcəkdə daha 3 quyunun qazılması nəzərdə tutulub. Bu zonada hər birinin tutumu 500 kubmetr olan 2 anbar tikilib, buradan şəhərə 5,6 kilometr uzunluğunda magistral su xətti çəkilib. Layihə çərçivəsində inşası nəzərdə tutulan 147 kilometr uzunluğunda içməli su şəbəkəsinin tikintisi tam yekunlaşıb, 9761 ünvana birləşmə verilib.

* * *

Səfər çərçivəsində Prezident Göyçay Musiqi məktəbinin də açılışında iştirak edib. Məktəbin ümumi sahəsi 650 kvadratmetrdir. Burada müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün 80 yerlik konsert zalı yaradılıb. Məktəbin fortepiano, skripka, qarmon, tar, kaman, xanəndəlik şöbələrində uşaqlar incəsənətimizin və musiqimizin sirlərinə yiyələnirlər. Bütün sinif otaqları zəruri alət və avadanlıqlarla təchiz olunub.

* * *

Dövlət başçısı səfər çərçivəsində Göyçay Şahmat məktəbinin açılışında iştirak edib. Əsaslı yenidənqurma işlərindən sonra binanın birinci mərtəbəsində 60 yerlik kiçik zal, kompüter, müəllimlər və üç sinif otağı yaradılıb. Bundan başqa, məktəbdə 90 yerlik böyük yarış zalı da fəaliyyət göstərir. Məktəbdə təhsil alan 251 şagirdə şahmatın sirlərini 11 müəllim öyrədir.




* * *

Prezident Göyçay Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmirdən sonra istifadəyə verilmə mərasimində də iştirak edib. Ümumi sahəsi 12 min kvadratmetrə yaxın olan xəstəxana binası əsas, yoluxucu xəstəliklər və digər korpuslardan ibarətdir. Xəstəxananın müalicə korpusunda qəbul, şüa-diaqnostika, rentgen, kompüter-tomoqrafiya, ginekologiya, urologiya, travmatologiya, terapiya, anesteziologiya-reanimasiya şöbələri, cərrahi əməliyyat bloku və laboratoriyalar var. Mərkəzi xəstəxanada və poliklinikada 102 həkim və 223 tibb işçisi əhaliyə xidmət göstərir. Xəstəxananın laboratoriyası da analizlərin dəqiq aparılması üçün zəruri avadanlıqlarla təchiz edilib.



* * *

Dövlət başçısı səfər zamanı Göyçay Su-Elektrik Stansiyasının açılışında iştirak edib. Gücü 3,1 meqavat olan stansiya ildə 20 milyon kilovatsaat elektrik enerjisi istehsal etməyə qadirdir. Bu da Göyçay rayonunun tələbatının 25 faizini təşkil edir.

Stansiyanın ərazisi 5 hektardır, burada geniş yaşıllaşdırma və abadlıq işləri aparılıb, köməkçi tikililər inşa edilib. Stansiyada hər birinin gücü 1,03 meqavat olan üç hidroaqreqat, suqəbuledici və tutumu 4500 kubmetr olan təzyiq hovuzu, hər birinin uzunluğu 28,4 metr olan üç dəmir-beton təzyiq qurğusu quraşdırılıb. Burada həmçinin turbin zalı və su nəqledici kanal yaradılıb, 10 kilovoltluq yarımstansiya və elektrik xətləri çəkilib.

## SUMQAYIT

Oktyabrın 25-də Sumqayıt Kimya Sənaye Parkının ərazisində "Azertexnolayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin Texniki Avadanlıqlar Zavodu istifadəyə verilib. Bununla əlaqədar keçirilən tədbirdə dövlət başçısı İlham Əliyev iştirak edib.



Parkın ərazisində ilk sərmayəçi olan "Azertexnolayn" MMC-nin artıq bir neçə zavodu fəaliyyət göstərir. Zavodların keyfiyyət siyasətinin əsasını müştəri məmnuniyyəti təşkil edir. Müştərilərə yüksək standartlara uyğun keyfiyyətli məhsullar təqdim edilir. Bunun nəticəsidir ki. ABŞ-ın Neft İnstitutu tərəfindən "Azertexnolayn" MMC-yə beynəlxalq keyfiyyət sertifikatı verilib.

Zavodda üçnövbəli iş rejimində 250 nəfər işlə təmin olunub. Burada istehsal edilən məhsullar əsasən daxili bazarda olan tələbatın ödənilməsinə yönəldilib. Müəssisənin məhsullarının həmçinin xaricə, o cümlədən Türkiyəyə, MDB dövlətlərinə və digər ölkələrə ixrac olunması nəzərdə tutulub.

* * *

Prezident səfər zamanı Sumqayıtda "SOCAR Polmyer" layihəsi çərçivəsində inşa edilən yüksək sıxlıqlı polietilen zavodunun təməlqoyma mərasimində də iştirak edib. "SOCAR Polmyer" layihəsi son 40 ildə miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. Şirkətin iki qurğusu hər il 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcək. Bu qurğular 2018-ci ildə istismara veriləcək. Hazırda ölkəmiz aşağı sıxlıqlı polietileni ixrac, yüksək sıxlıqlı polietileni isə idxal edir. Layihənin əsas məqsədi idxalın əvəz olunması və ölkənin ixrac potensialının artırılmasıdır. İstehsal ediləcək məhsulların 30 faizi yerli, 70 faizi Türkiyə və Avropa bazarlarına çıxarılacaq.

* * *

Həmin gün Sumqayıtda etilen-polietilen zavodunda yeni qurğular işə salınıb. Mərasimdə Prezident İlham Əliyev iştirak edib.

Zavodda istismara verilmiş yeni qurğulardan biri də mütləqləşdirilmiş izoprofin spirti sahəsidir. 2010-cu ildən başlayaraq "Azərkimya" İstehsalat Birliyində zəhərli və zərərli, müasir standartlara cavab verməyən, iqtisadi cəhətdən qeyri-səmərəli və əsasən ətraf mühitin ekologiyasına mənfi təsir göstərən istehsalatlar sökülərək yenidən qurulur. Çirklənmiş ərazidən külli miqdarda zəhərli maddə və kimyəvi tullantı utilləşdirilib.

* * *

Oktyabrın 28-də Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılış mərasimi olub. Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən kompleks Ceyranbatan gölündən suyun götürülməsi məqsədilə tikilən hidrotexniki qurğudur. Sutəmizləyici qurğunun özü onun köməkçi infrastrukturu, emal olunan suyun optimal paylanması məqsədilə relyef baxımından hündürlükdə yerləşən anbardan və qurğudan anbara qədər magistral kəmərdən ibarətdir.

Əhalinin daha keyfiyyətli içməli su ilə təmin edilməsi, Bakıətrafı qəsəbə və yeni yaşayış massivlərinin içməli suya tələbatının ödənilməsi Kür sutəmizləyici qurğusunda emal olunan suyun bir hissəsinin Aran və Muğan bölgəsinə yönəldilməsini, eyni zamanda Ceyranbatan sutəmizləyici qurğusunun üçüncü növbəsinin köhnəlməsi yeni qurğunun inşasını zəruri edirdi. Bununla yanaşı, Taxtakörpü su anbarının və Taxtakörpü-Ceyranbatan su kanalının tikintisi hesabına Ceyranbatan gölündə kifayət qədər su ehtiyatının yaranması yeni qurğunun xam su ilə təminatına imkan verirdi. Bu məsələ "Abşeron yarımadasının içməli su ilə təchizatı, kanalizasiya və yağış suları sisteminin Master Planı" layihəsində əsas vəzifə kimi qarşıya qoyulmuşdu.

***"Azərbaycan"***

